*AMEA Filologiya və sənətşünaslıq, 2023, № 2* *ISSN 2663-4368*
*Səhifə: 222-229* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2023.2.222*

# MƏHƏBBƏT ƏFSANƏLƏRİNİN STRUKTURU VƏ FUNKSİONALLIĞI

**Aytən Hacıyeva**
AMEA Folklor İnstitutu. Azərbaycan.
E-mail: aytan.haciyeva@sport.edu.az

**Annotasiya.** Epik folklorun digər janrlarından fərqli olaraq, əfsanələrin struktur xüsusiyyətləri indiyə qədər ətraflı öyrənilməyib, onu təşkil edən komponentlər haqqında elmdə aydın təsəvvür yoxdur. Bununla əlaqədar məqalədə məhəbbət əfsanələrinin strukturunun öyrənilməsi bir məqsəd kimi qarşıya qoyulmuşdur. Tədqiqat zamanı Alan Dandesin etik və emik yanaşmaları haqqında fikirlərindən çıxış edərək əfsanələrin struktur vahidləri müəyyənləşdirilmişdir. Tədqiqat əfsanələrin nağıllar kimi sabit strukturunun olduğunu, onların təhlükə, dilək, yasaq, sakrallıq, əbədiyyət, yasaq, yasağın pozulması, cəza motifemlərindən təşkil olunduğunu üzə çıxartmışdır. Motifemlərin sayı məhduddur, amma onların ardıcıllığı sabitdir, dəyişməzdir. Motifemlər süjetdə allomotivlər vasitəsilə reallaşır. Motifemlərin ardıcıllığı əfsanələrin ümumi strukturunu verirsə, allomotivlərin ardıcıllığı süjetin strukturunu verir. Məhəbbət əfsanələrinin strukturu onların dini mətnlər olduğunu, təkallahlıq inancı və ondan irəli gələn dəyərləri təbliğ etdiyini göstərir.
**Açar sözlər:** əfsanə, motifem, allomotiv, struktur, möcüzə, cəza, etiologiya, müqəddəs məkan

**Məqalə tarixçəsi:** göndərilib – 11.07.2023; qəbul edilib – 26.07.2023

# STRUCTURE AND FUNCTIONALITY OF LOVE LEGENDS

**Ayten Hajiyeva**
Institute of Folklore of ANAS. Azerbaijan.
E-mail: aytan.haciyeva@sport.edu.az

**Abstract.** Unlike other genres of epic folklore, the structural features of the legend have not yet been studied in detail, and science does not have a clear idea of its constituent components. In this regard, the article aims to study the structure of love legends. In the course of the study, the structural units of the legends were determined on the basis of Alan Dundes' ideas about the ethical and emic levels. The study revealed that legends have a fixed structure, like fairy tales, and consist of motives of danger, desire, prohibition, sacredness, perpetuation, prohibition, violation of the prohibition and punishment. The number of motives is limited, but their sequence is stable and unchanging. Motives are realized in the plot through allomotives. If the sequence of motives gives the general structure of the legend, then the sequence of allomotives gives the structure of the plot. The structure of the love legends shows that they are religious texts that propagate the belief in monotheism and the values derived from it.
**Keywords:** legend, motive, allomotive, structure, miracle, punishment, etiology, sacred space

**Article history:** received – 11.07.2023; accepted − 26.07.2023

## Giriş / *Introduction*

Folklorşünaslıqda əfsanələrin tədqiqi uzun müddət diaxron istiqamətdə aparılmış, tədqiqatçıları süjetin strukturu, kompozisiya xüsusiyyətlərindən daha çox, əfsanə süjetlərinin mənşəyi maraqlandırmışdır. Kimi əfsanələri insanların təbiət hadisələrinin mahiyyətini dərk etmək cəhdi kimi izah etmiş, kimi də onları dini məxəzlərə bağlamış, dini ədəbiyyatın təsiri ilə yarandığını iddia etmişdir. Bütün bu yanaşmalar əfsanələrin öyrənilməsini dar çərçivəyə salmış, nəticədə, əfsanələrin struktur özəllikləri diqqətdən kənarda qalmışdır. Diaxron istiqamətdə aparılan tədqiqatlarda istifadə olunan metod müqayisəli metod idi. Bu metod sayəsində süjetin tarixi inkişafı izlənilərək invariant tapılır, invariantdan çıxış edilərək süjetin yayılma arealı, sonrakı dövrlərdə məruz qaldığı dəyişikliklər müəyyən edilirdi. Fin məktəbinin istifadə etdiyi tarixi-coğrafi metod məhz buna əsaslanırdı. Amma bu metod, Alan Dandesin də ifadə etdiyi kimi, əfsanələrin struktur xüsusiyyətlərinin öyrənilməsi üçün əl vermir və yeni yanaşma tələb edir [6, s.15]. Əfsanələrin struktur özəlliklərinin öyrənilməsinin ən effektli yolu isə struktur vahidlərinin müəyyənləşdirilməsindən keçir. Struktur vahidləri süjeti təşkil edən konstruksiyalardır. Onlar abstraksiya hadisəsidir və süjeti təşkil edən komponentlərin ümumiləşdirilməsi nəticəsində ortaya çıxır. Onların sabit elementlərdən təşkil olunması əfsanə strukturunu başa düşməyimizə, onun özəlliklərini üzə çıxartmağımıza kömək edir.

## Əsas hissə / *Main Part*

Nağıl və dastanların strukturunun öyrənilməsi istiqamətində xeyli irəliləyiş əldə olunsa da, bunu əfsanə, rəvayət, memorat kimi qeyri-nağıl janrları haqqında söyləmək mümkün deyil. Uzun müddət diqqətdən kənarda qaldıqları üçün onların strukturu ayrıca tədqiq olunmayıb. Ona görə əfsanələrin strukturu haqqında çox az bilgiyə sahibik. Buna baxmayaraq, nağıl strukturunun öyrənilməsi istiqamətində əldə edilən təcrübə digər folklor janrlarının struktur xüsusiyyətlərinin öyrənilməsi üçün böyük imkanlar yaradır.

V.Y.Propp sehirli nağılların strukturunu öyrənərkən onun sabit və dəyişkən elementlərdən təşkil olunduğunu müəyyənləşdirmişdi [9, s.23]. Onun fikrincə, nağıl personajları və onların atributları dəyişkən, personajların yerinə yetirdiyi fəaliyyətlər isə sabit elementlərdir. V.Y.Propp həmin sabit elementləri funksiya adlandırmışdı. V.Y.Proppa görə, funksiyaların sayı məhduddur, sehrli nağıllar 32 funksiya əsasında təşkil olunur. Buradan da sehrli nağılların sabit strukturunun olduğu üzə çıxır. V.Y.Proppun bu fikirləri sonralar Amerikan folklorşünası Alan Dandes tərəfindən daha da inkişaf etdirilmişdir. A.Dandes V.Y.Proppun funksiya haqqında fikirlərini Kennet Paykın etik və emik səviyyələr haqqında fikirləri ilə sintez etmiş, funksiya əvəzinə, motifem terminini işlətməyə üstünlük vermişdir. Bunu funksiya termininə rəğbət görülməməsi ilə əsaslandırmışdır. Onun fikrincə, motifem süjetüstü bir məfhumdur və süjetdə allomotivlər vasitəsi ilə reallaşır. Motifemlərin ardıcıllığı əfsanənin ümumi strukturunu, allomotivlərin ardıcıllığı isə süjetin strukturunu təşkil edir [6, s.24].

Folklorşünaslıqda uzun müddət əfsanələrin sabit strukturunun olmaması haqqında fikir hakim olub. B.N.Moroxin əfsanələrin sabit strukturunun, ənənəvi priskazka (pişrov), başlanğıc və sonluğunun olmadığını yazırdı [7, s.178]. B.N.Moroxinlə eyni fikri bölüşən K.V.Çistov yazırdı: “Əfsanə, rəvayət, pobıvalşina (əhvalat – A.H.) və digər şifahi hekayələr məişət nəsr nümunələri arasında o qədər də aydın seçilmir və struktur müstəqilliyi və tamlığı ilə fərqlənmirlər. Onlar öz-özünə yetən estetik sistemlər deyillər, daha çox idraki, dünyagörüş, publisistik sistemlərdir” [12, s.10]. K.V.Çistovun bu fikrilə razılaşmayan, əksini söyləyən tədqiqatçılar da mövcud idi. “Müqəddəsə hörmətsizlik” əfsanələrini öyrənən İ.A.Pankov onların sabit strukturunun olduğunu qeyd edirdi: “Müqəddəsə hörmətsizlik haqqında əfsanə-rəvayətlər eyni narrativ sxem əsasında yaranır, personajlar, iştirakçılar, hadisə və adlar dəyişir, lakin bəlli bir

funksiya yerinə yetirən əfsanə hissələrinin ardıcıllığı sabit qalır" [8, s.154]. Biz də bu fikirdəyik ki, əfsanələrin strukturu sabit elementlərdən təşkil olunur. Həmin sabit elementləri Alan Dandesin təsnifatına uyğun olaraq motifem adlandıracağıq. Beləlikə, məhəbbət əfsanələri aşağıdakı motifemlərdən təşkil olunur.

*Təhlükə (T)*

Xüsusi ekstremal vəziyyətdir və süjetdə aşiqlərin təqib olunması, xəlvəti görüşməsi, qızın sevmədiyi adama ərə verilməsi, eyni qıza aşiq olmaq və sair allomotivlər vasitəsi ilə gerçəkləşir. Süjet təhlükə motifeminə görə şəkillənir, hadisələrin inkişaf axarı ona görə müəyyənləşir. Bu xüsusiyyətinə görə təhlükə motifemi süjetlərin fərqləndirilməsi və adlandırılmasında mühüm rol oynayır. Məhəbbət əfsanələrində təhlükəni doğuran situasiya – nakam məhəbbət və müharibə mövzusu üzərində qurulur. Uğursuz sevgi və ya müharibə elə bir situasiya yaradır ki, qəhrəman sevgisinə xilaf çıxmaq, düşmən əlinə keçmək, el içində xar olmaq qorxusu yaşayır, bu da dilək motifeminin süjet strukturuna daxil olmasına səbəb olur.

*Dilək (D)*

Qəhrəmanın düşdüyü təhlükədən xilas olmaq üçün baş vurduğu yoldur, dilək diləmək, yalvarmaq, dua etmək, göyə əl açmaq, göylərə üz tutmaq və sair formalarda təzahür edir. Forma müxtəlifliyinə baxmayaraq, bu allomotivlərin hamısı süjet strukturunda eyni funksiyanı yerinə yetirir. Dilək ya sözlü, ya da şeirlə edilir. Şeirlə edilən zaman bayatı qəlibli şeirlərdən istifadə olunur. Dilək zamanı qəhrəman ya dönmək istədiyi varlığın və ya predmetin birbaşa adını çəkir, ya da sadəcə, Allahdan kömək istəyir.

*Möcüzə (M)*

Möcüzə diləkdən az sonra baş verir və ilahi iradənin təzahür forması olaraq ortaya çıxır. Möcüzə ilə dilək arasındakı bu zaman bağı "söz ağzından qurtarmamış", "həmən an", "elə oradaca" və sair zaman formulları vasitəsilə ifadə olunur. Təhlükədə olan şəxs özü üçün dilək diləməsinə baxmayaraq, diləyin nəticəsi orada olan hər kəsə şamil olunur. Məsələn, təqib olunan şəxs Allaha əl açır, Allah onu və təqib edənləri – hamını daşa döndərir. Yaxud çoban ilandan xilas olmaq üçün dilək diləyir, Allah çobanı, onun sürüsünü və ilanı daşa döndərir.

*İntihar (İ)*

İntihar qəhrəmanın özünə qəsd etməsi və ya günahsız yerə öldürülməsi şəklində reallaşır. Dilək və intihar motifemlərinin əfsanə strukturunda oynadığı rol eynidir, hər ikisi möcüzənin baş verməsinə zəmin yaradır. Əgər dilək zamanı qəhrəman birbaşa nəyəsə dönürsə, intihar zamanı ona məxsus substansiyalar – qan, göz yaşı və sair nəyəsə çevrilir.

*Sakrallıq (S)*

Yeni yaranan predmetlər qeyri-adi əlamətləri ilə seçilir. Qayadan su əvəzinə qan axır, ağac adi ağaclar kimi deyil, naməlum şəkildə artır, çayın suyu göz yaşı kimi duru olur, suyu saxladıqda keyfiyyətini itirmir, yanmış kösöv göyərir, dəfn olunmuş şəxsin cəsədi çürümür və s. Bu kimi əlamətlər həmin məkan elementlərini müqəddəsləşdirir, onları adi məkan elementlərindən fərqləndirir. İlahi iradəni ifadə etdiyi üçün həmin məkanlar pir kimi ziyarət olunur, yaradılış obyekti canlıdırsa, onu öldürmək, xəsarət yetirmək, qırmaq və ya kəsmək günah hesab olunur.

*Əbədiyyət (Ə)*

Əbədiyyət qəhrəmanın adının, əlamətinin və xüsusiyyətinin yeni yaranan predmetə köçürülməsi yolu ilə baş verir. Əfsanələr, adətən, qəhrəmanın adının əbədiləşdirilməsi ilə tamamlanır. Bununla da qəhrəmanın bioloji zamanı ədəbiyyət qazanır, o, gələcək nəsillər üçün ibrət dünyasına çevrilir.

Məhəbbət əfsanələrini təhlil edərkən iki fərqli kompozisiyalı süjetlərlə qarşılaşırıq. Bu süjetlər təkcə məzmununa görə deyil, həm də struktur komponentlərinə görə bir-birindən fərqlənir. Birinci qrup məhəbbət əfsanələrində süjet təhlükə-dilək-möcüzə motifemlərindən qurulursa (yuxarıda bəhs olunan struktur elementləri məhz bu qrupa məxsus əfsanələrə aiddir), ikinci qrup əfsanələr yasaq-yasağın pozulması – cəza motifemlərindən təşkil olunur. Hər iki qrupda möcüzə mərkəzi yer tutur. Sadəcə olaraq, birinci qrup əfsanələrdə möcüzə qəhrəmanın xilasına, ikinci qrup əfsanələrdə isə onun cəzalandırılmasına xidmət edir. İkinci qrupa daxil olan əfsanələr aşağıdakı motifemlərdən təşkil olunur.

*Yasaq (Y)*

Yasaq dini-əxlaqi normalar sistemidir, onun pozulması ilahi iradənin müdaxiləsini zəruri edir. Yasaqlar süjetdə çox vaxt birbaşa ifadə olunmur, lakin süjetin məzmunundan, cəzanı yaradan səbəbdən çıxış edərək onu müəyyən etmək olur.

*Çətin tapşırıq və onun həlli (T)*

Süjetin strukturunda oynadığı roldan asılı olaraq nigah tapşırığı da adlandırmaq mümkündür, hansısa fəaliyyətin reallaşmasının qarşısının alınmasına xidmət edir və həlli qeyri-mümkün və ya həddindən artıq çətin tapşırıqlardan ibarət olur. Məsələn, susuz sahədə məhsul yetişdirmək, Göyçə gölündəki qızıl balığı tutmaq və s.

*Yasağın pozulması (P)*

Əfsanələrdə yasaqlar, bir qayda olaraq, pozulur. Yasağın pozulması günah əməl kimi qəbul olunur və buna yol verən şəxsi ciddi cəza gözləyir.

*Cəza (C)*

Cəza motifemi əfsanənin ən kulminasiya anıdır və ilahi iradənin müdaxiləsi olaraq ortaya çıxır. Mifoloji təfəkkürdə cinayət və cəza anlayışlarının mahiyyətini araşdıran S.M.Tolstaya yazır ki, xalq təsəvvüründə insanın hər bir fəaliyyətinin, hərəkətinin kosmosda, təbiətdə müəyyən bir qarşılığı vardır. İbtidai dövrdə cəmiyyət sərt normalarla idarə olunmuşdur. Normanı pozmağa yönəlmiş fəaliyyətlər dünya nizamını təhdid edən hərəkət kimi qəbul olunmuş, onun mənfi nəticələri olacağı düşünülmüşdür. Bununla əlaqədar, xalq təsəvvüründə dini-əxlaqi normaları pozan hər bir hərəkət günah əməl hesab olunur və onu pozanı ağır cəza gözləyir [11, s.312]. Eynilə əfsanələrdə də dini-əxlaqi normaların pozulması günah əməl hesab olunur. İlahi müdaxilə sayəsində mövcud düzən bərpa olunur, həmin düzənə qarşı çıxan, onu pozmağa çalışan şəxslər cəzalandırılır. Cəza, əslində, mocüzədir, ilahi iradənin yansımasıdır, sadəcə olaraq, süjetin strukturunda oynadığı rola görə möcüzə deyil, cəza adlandırılır.

Əfsanələr yuxarıda sadalanan motifemlərdən təşkil olunur. Süjetlərin təşkili zamanı bu motifemlərdən hansısa biri iştirak etməyə bilər, amma bu, digər motifemlərin ardıcıllığına təsir etmir. Motifemlərin ardıcıllığı sabit və dəyişməzdir. Məsələn, sakral dünyanın əlaməti hesab olunan müqəddəslik haqqında təsəvvürlərin süjetin strukturuna daxil olması üçün möcüzə motifeminin iştirak etməsi şərtdir. Yaxud əfsanələr ibrət dünyası olduğu üçün, bir qayda olaraq, qəhrəmanın adının əbədiləşdirilməsi ilə tamamlanır. Cəza mütləq yasaq pozulduqdan sonra süjet strukturuna daxil olur.

İndi isə həmin struktur elementlərini əfsanələr üzərində izləyək. Nümunə üçün "Oğlan-qız dərəsi" əfsanəsinə diqqət yetirək. Süjet aşağıdakı struktur vahidlərindən təşkil olunub:

*T – Qubatdı rayonunda oğlan-qız dərəsi varıydı. Deyilənnərə görə, bir oğlannan bir qız bir-birini sevirmiş. Heş birinin də ata-anası bıların evlənməhlərinə razı deyilmişdər. Gün o gün olur ki, bıllar başdıyıllar qaşmağa. Qaçıllar, qoşun düşür bılların dalınca.*

*D – Qaçıllar, qaçıllar, gəlillər, indi harda ki, Oğlan-qız dərəsi var ee, ordan keçəndə adamlar tamam yaxınnaşırdılar. Əl atıllar ki, tutsunnar. Onda oğlannan qız deyir ki, Allah, sən bizi daşa döndər.*

*M – Elə ordaca daşa dönüllər.*

*Ə – Oğlanın boyu hündür, qızın da boyu alçax olduğunnan daşın biri hündür, biri alçaxdı. O vaxdan da adı qalır "Oğlan-qız dərəsi"* [3, III cild, s.96].

Gənclərin bir-birinə aşiq olması, qızın atasının bu evliliyə qarşı çıxması təhlükə motifeminin süjet strukturuna daxil olması üçün zəmin yaradır. Qızın atası onların evlənmələrinə qarşı çıxdığı üçün aşiqlər anlaşaraq qaçır və qızın atası onları təqib edir. Aşiqlərin təqib olunması, onların ələ keçmək qorxusu dilək motifeminin süjetin strukturuna daxil olmasına səbəb olur. Ələ keçəcəyini görən qız Allaha əl açır, ondan kömək istəyir. Möcüzə dilək qurtaran kimi baş verir. Qız diləyini bitirəndən sonra Allah onları daşa döndərir. Mətndə qəhrəmanın adının əbədiləşdirilməsi daşa dönən şəxslərin formasının və adının məkana köçürülməsi yolu ilə baş verir. Məhz bu xüsusiyyətinə görə əfsanələrdə dönüş ölüm deyil, qəhrəmanın başqa formada, başqa şəkildə öz varlığını saxlaması kimi qəbul olunur. Müqəddəs məkanı dünyəvi məkandan fərqləndirən cəhət buradakı zamanın əbədiliyidir. Zamanın əbədiliyi qəhrəmanın adının əbədiləşdirilməsi yolu ilə baş verir. Bununla qəhrə-

man ölümsüzləşdirilir, onun adı, uğrunda qurban getdiyi dəyərlər daim yaşadılır.

Göründüyü kimi, sakrallıq motifemi bu əfsanənin strukturunda iştirak etmir, amma bu, digər motifemlərin ardıcıllığına təsir etmir, onların ardıcıllığı sabit qalır.

"Oğlan-qız dərəsi" əfsanəsində möcüzə diləkdən sonra baş verir. Amma elə əfsanələr də vardır ki, orada möcüzə qəhrəmanın intihar etməsindən və ya öldürülməsindən sonra baş verir. Nümunə üçün, "Xanoğlan və Bəsti" əfsanəsinə diqqət yetirək.

*T – Xan çinarın, suyun yaranma tarixini mən bilirəm. Orda bir bəy istirahət eliyirmiş. Onun gözünün ağı-qarası bir qızı varmış. Qızın adı Bəstiymiş. Bəy burda istirahət eliyirmiş. Həmin kənd də Razdərə kəndidi. Orda bir yetim uşaq olur. Okqədər səmimi, düzgün, mərifətdi olur ki... Adı Xanoğlanmış. <...> Vaxt ötür. Qızın anası buna çatdırır ki, bir yetim uşaq qıza aludə olub, günün-saatın onnan keçirir. Deyir, mən bəy adam, yetim hara, mən hara. Bu nədi mənim başıma gəlir? Adamlarına tapşırır ki, oğlana bir az hədə-qorxu gəlin, aralaşsın getsin. Deyin ki, sən uşaqsan, get tayı-tuşu axtar. Bəy qızınnan sənin nə işin.*

*İ – Baxıllar görüllər əməl eləmir. Axır o məqama gəlir ki, bəy deyir:– Aparın onu öldürün.*

*Obaşdan durullar, gedib oğlanı tapıllar, aparıllar. Həmən Xan çinar meşəsi başlayan yerdə qəlbi bir qayalıx vardı. Aparıllar Xanoğlanı o dağdan atırlar. Xanoğlan ölür. Qız eşidir bunu. Durur atasından, anasından xəlvət qaçır gedir o dağın ətəyinə. Oğlanı tapır. Görür ölüb. Qız da dağa çıxır, özün ordan atıb öldürür.*

*S – O çinar meşəsi Xanoğlanın adına bitir. Onun nə toxumu bitmir, nə çiliyi bitmir. O Bəsitçay da o qədər durudur ki, noxudu atırsan, noxud dibində görükür.*

*Ə – O su qızın adına çıxıf axır, o çinar da oğlanın adına bitif* [4, X cild, s.88].

"Xanoğlan və Bəsti" əfsanəsinin struktur vahidləri bunlardır: təhlükə, intihar, möcüzə, sakrallıq və əbədiləşdirmə. Burada da süjet gənclərin bir-birinə aşiq olması və qızın valideynlərinin onların evlənməyinə qarşı çıxması ilə başlayır, amma hadisələrin sonrakı inkişafı artıq fərqlilik göstərir. Əvvəlki variantdakı təqib və dilək motifemləri burada iştirak etmir, onun əvəzinə intihar motifemi süjetin strukturuna daxil olur. "Oğlan-qız dərəsi" əfsanəsində möcüzə dilək motifemindən sonra baş vermişdisə, burada qəhrəmanın intihar etməsi və ya öldürülməsindən sonra baş verir. Oğlanın qanı tökülən yerdən xançinar ağacı bitir, qızın özünü atdığı yerdən isə Bəsitçay axır. Yaranan obyektlər qeyri-adi xüsusiyyətləri ilə seçilir. Xançinar adi ağaclar kimi toxumundan və ya çiliyindən deyil, naməlum şəkildə artır. Bəsitçayın suyu isə göz yaşı kimi duru olur. Bu kimi xüsusiyyətlər həmin məkana müqəddəslik qazandırır, onu digər məkan elementlərindən fərqləndirir. Digər əfsanələrdə olduğu kimi, burada da süjet qəhrəmanın adının əbədiləşdirilməsi ilə tamamlanır. Xançinar öz adını Xanoğlandan, Bəsitçay isə adını Bəsti adlı qızdan alır. Göründüyü kimi, intihar dilək motifeminin yerini tutmuş və möcüzənin baş verməsinə zəmin yaratmışdır.

Möcüzənin cəza olaraq ortaya çıxdığı əfsanələrin strukturu isə yuxarıda bəhs olunan əfsanələrdən seçilir. Nümunə üçün Tovuz rayonundan qeydə alınmış "Torpaq qala" əfsanəsinə diqqət yetirək:

*Y – Torpax qalanın arxı bizim kəndin içinnən gedif. Köhnə kişilər Torpax qaladan böyük küplər gətirirdi, içinə taxıl doldorordolar. Kirkirə gətirirdilər. Saxsı qablar, qırmızı kərpiş çıxerdi. Torpax qalanın da rəvayəti belədi. Yaşlı kişilər danışırdı ki, buranın padşahının yoldaşı ölür. Arvad öləndə vəsiyyət eliyif ki, bu ayakqabı kimin ayağına olsa, a kişi, sən onu al. Kişi də dünyöyü gəzer, bu ayakqabı heş kimin ayağına olmor. Özünün bir qızı vardı. Qız ayakqabını ayağına taxır, ayakqabı ayağına olor. Padşah fikirrəşir ki, a bala, məni nə dağa-daşa salmısan. Hazır ayakqabı sənin ayağına oluf, elə səni də alajam.*

*T – Qız belə bir tövsiyə verir. Torpax qalanın bir tərəfi də Kürdü. Deyir: – Gedersən Kürün o tayında düz yer var, bizim yataq yerləridi. Gedərsən orda bostan əkərsən. Orda məhsul olsa, sən deyəndi.*

*Kürün suyu da ora çıxmer, susuz yerdi. Padşah böyük noy tikdirir, yumurta sarısıynan onu bütün suyuyur ki, su dammasın. Suyu bu noya bağlıyır, suyu çəkib gətirer. Suluyannan sora bostan əmələ gəler. Qız deyir: – Dədə, bostan*

*əmələ gəlibmi? Deyir:– Hə. Deyir:– Get bir yemiş, bir qarpız gətir.*

*P – Deyir, qarpızı kəsəndə qan çıxer, yemişi kəsəndə irin çıxer. Deyir: – Dədə, bizim dolanmağımız budu.*

*C – Torpaq qalaynan bağlı bu rəvayətdi. Kimi deyir, padşah qızı aldı, onunçün bura alt-üst oldu. Kimi də deyir, almadı* [5, II cild, s.43].

Yasaq motifemi əfsanənin strukturunda açıq şəkildə ifadə olunmayıb, amma hadisələrin inkişafından, qızın nikaha qarşı çıxmasından süjetin inçest motivi üzərində qurulduğunu, yasaqlanan əməlin ata ilə qızın nikahı olduğunu müəyyən etmək olur. Ata, ölən arvadının ayaqqabısı kimi ayağına gələrsə, onunla evlənəcəyini əhd edir. Həmin ayaqqabı qızının ayağına gəldiyi üçün onunla evlənmək istəyir. Yasaq motifemindən sonra süjet çətin tapşırıq və onun həlli motifemləri ilə davam edir. Qız atasına çətin tapşırıq verməklə nikahın gerçəkləşməsinin qarşısını almaq istəyir, amma atası su çıxmayan sahəyə saxsı borularla su çəkməklə orada məhsul yetişdirməyə nail olur. Həmin sahədə yetişən bostan məhsullarının içindən qan, irin tökülür. Qız bunu ilahi mesaj kimi qəbul edərək, atasını bu nikahdan vaz keçirməyə çalışır, amma məqsədinə nail olmur. Ata sonunda qızı ilə evlənir.

Yasağın pozulması günah əməl kimi qəbul olunur, onun qarşılığı isə cəzadır. Əfsanələrdə cəza ilahi iradənin təcəllası kimi qəbul olunur. Yasağı pozduqları üçün Allah Torpaq qalanı uçurdur və oradakı insanları məhv edir. Allah burada mövcud düzənin, dini-əxlaqi dəyərlərin qoruyucusudur, məhz onun müdaxiləsi ilə yasağı pozanlar cəzalandırılır. Dilək motifeminin iştirak etdiyi əfsanələrdə dilək zamanı orada olan hər kəs, hətta süd sağılan qaba qədər hər şey daşa çevrilirsə, burada da heç kəsə fərq qoyulmur. Yasağı pozanla buna qarşı çıxan qız – hər iki tərəf cəzalandırılır.

Süjet ənənəyə uyğun olaraq əbədiləşdirmə motifemi ilə tamamlanır. Məkan möcüzənin şəklinə görə adlandırılır. Məsələn, Dambatan, İldırım qayası və s. Mətndə belə məkanların səciyyəsi haqqında, oranın müqəddəs yer kimi qəbul olunub-olunmaması haqqında heç bir informasıya verilmədiyi üçün məkanın səciyyəsi haqqında fikir söyləmək çətindir. Amma digər əfsanələrdən bizə məlumdur ki, ilahi iradənin təcəlla etdiyi yer, adətən, müqəddəs məkan kimi qəbul olunur, belə məkanlar pir, ocaq kimi ziyarət edilir. Cəza da Allahın birbaşa iştirakı ilə baş verdiyi üçün belə məkanların da müqəddəs yer hesab olunması mümkündür.

Məhəbbət əfsanələrinin böyük əksəriyyəti qeyd olunan motifemlərdən təşkil olunur. Əfsanələrin təhlili göstərir ki, motifemlər süjetüstü vahidlərdir, onlar allomotivlərin süjet strukturunda oynadığı rola görə müəyyənləşir. Məsələn, dilək motifemi əfsanələrdə aşağıdakı allomotivlər vasitəsi ilə reallaşır. Dilək diləmək, Allaha yalvarmaq, göylərə üz tutmaq, göylərə əl açmaq, dua etmək və s. Yaxud möcüzə motifemi nəyəsə dönüşmə, qeybə çəkilmə, daşın göydən asılı qalması, qılıncın qayanı parçalaması və sair formalarda təzahür edir. Forma müxtəlifliyinə baxmayaraq, bu fəaliyyətlərin hamısı süjet strukturunda eyni rol oynayır, dilək və möcüzə motifemlərini təşkil edirlər. Buradan aydın olur ki, *motifemlərin sayı məhduddur, amma allomotivlərin sayında məhdudiyyət yoxdur. Motifemlərin ardıcıllığı əfsanələrin ümumi strukturunu, allomotivlərin ardıcılığı isə süjetin strukturunu verir. Ona görə süjetlərin müəyyənləşdirilməsində allomotivlər əhəmiyyətli rol oynayır.*

Forma məzmuna bağlıdır, məzmunun strukturlaşmış halıdır. Ona görə əfsanələrin forma xüsusiyyətləri həm də onların sosial funksiyası haqqında məlumat verir. Əfsanələrin strukturuna diqqət yetirdikdə onların məkan və nəsnələrin yaradılışından bəhs edən mətnlər olduğunu görürük. Amma ilkin yaradılışdan, tarix öncəki yaradılışdan bəhs edən miflərdən fərqli olaraq, əfsanələrdə tarixi dövrdəki yaradılışdan danışılır və yaradılış səbəb-nəticə əlaqəsi əsasında verilir. Ana uşağın altını yuxa ilə təmizlədiyi üçün Allah buğdanı ərşə çəkir, çoban vəd etdiyi qurbanı kəsmədiyi üçün Allah onun sürüsünü daşa döndərir. Miflərdə yaradılış mədəni qəhrəmanların, tanrıların fəaliyyəti ilə əlaqələndirilirsə, əfsanələrdə Allaha və islam müqəddəslərinə bağlanılır. Xristianlarda məkanın müqəddəsliyi haqqında təsəvvürlərin formalaşmasında ikonalar mühüm rol oynayırsa (hansısa məkandan ikonanın tapılması həmin məkanın müqəddəsliyini göstərən əlamət kimi qəbul olunur), İslam coğrafiyasında həmin funksiyanı əfsanələr yerinə yetirir [8, s.150]. Əfsanə mətnləri müəyyən məkan və

nəsnələrin müqəddəsliyi haqqında təsəvvürləri formalaşdırır. Bu cür mətnlər, əslində, cəmiyyətə verilən bir mesajdır. Allahın mütləq güc olduğunu, onun mövcud nizamın yaradıcısı və qoruyucusu olduğunu bizə çatdıran mətnlərdir. Bundan çıxış edərək deyə bilərik ki, əfsanələr təkallahlıq inancı və ondan irəli gələn dəyərləri xalq arasında yaymağa xidmət edir.

Təkallahlıq inancını təbliğ etməsi, ilahi möcüzədən bəhs etməsi ilk baxışdan əfsanələrin kitab mənşəli olması təəssüratı yaradır. Folklorşünaslıqda da bir dönəm əfsanələr kitab mənşəli hesab olunmuş, dini ədəbiyyatın təsiri ilə yarandığı iddia edilmişdir. Amma sonrakı dövrdə aparılan araşdırmalarda bu fikirlər öz təsdiqini tapmamış, hətta kitab mənşəli hesab olunan bir çox süjetlərin şifahi ənənədən gəldiyi isbat edilmişdir [10, s.279]. Konkret əfsanələrə gəldikdə, V.Y.Propp bu xüsusda yazırdı: "Xalq əfsanələrində həm Əhdi-Əqiq, həm də Əhdi-Cədiddən olan fiqurlar var. Adəm, Həvva, Nuh, Süleyman, İlyas peyğəmbər, Məsih və onun həvariləri və bir çox başqa personajlar əfsanələrin daimi personajlarıdır. Lakin "İncil" və xalq əfsanələrinin sadə müqayisəsi göstərir ki, yalnız adlar üst-üstə düşür, süjetlər isə uyğun gəlmir və "İncil" xalq əfsanələrinin mənbəyi deyil. Belə bir müqayisə göstərir ki, insanlar "İncil"dən xəbərsizdirlər, onun haqqında qeyri-müəyyən təsəvvürlərə malikdirlər. Xalqın bütpərəstlik dövrünə gedib çıxan və Bibliya kosmoqoniyası ilə heç bir əlaqəsi olmayan öz kosmoqoniyası vardır" [10, s.279]. Biz də bu fikirlə razılaşırıq ki, əfsanələrin müqəddəs kitablarla əlaqəsi yoxdur. *Fikrimizcə, miflər çoxallahlıq inancı, ondan irəli gələn dəyərlərin xalq arasında təbliğinə xidmət edən mətnlər olmuş, çoxallahlıq inancının hakim olduğu cəmiyyətdə əfsanələrin funksiyasını məhz onlar yerinə yetirmişlər. Həmin inancın ortadan qalxması ilə miflər də ömrünü başa vurmuşdu. Təkallahlıq inancının ortaya çıxması həmin inancı təbliğ edən yeni dəyərlərin yaranmasını tələb etmişdir ki, dini əfsanələr, dini nağıllar, dini rəvayətlər məhz bu ehtiyacdan yaranmışlar. Bu janların hər biri təkallahlıq inancını və ondan irəli gələn dəyərləri məxsus olduqları janrın sərhədləri çərçivəsində yaymışlar.*

## Nəticə / *Conclusion*

Əfsanələr mövcud əxlaqi dəyərləri dəstəkləməklə, həm də mövcud dəyərlərin davam etməsinə xidmət edir. Deməli, mövcud dini-əxlaqi dəyərlərin yaşaması, həm də əfsanələrin yaşamasını şərtləndirir, həmin dəyərlərin dəyişməsi isə əfsanə mətnlərinin sıradan çıxmasına səbəb olur. Satı Kumartaşlıoğlu şəkil dəyişdirmə motivli əfsanələri təhlil edərkən maraqlı bir faktı təsbit edir. Əfsanələrdə təbliğ olunan bir çox dəyərlərin günümüzdə artıq dəyər təşkil etmədiyini üzə çıxarır: "... ənənəvi toplumun yaratdığı və bir xəbərdarlıq mexanizmi olaraq anlatdığı əfsanlərdəki dəyər mühakimələrinin bir qismi günümüzün müasir toplumlarının dəyər mühakimələri ilə uyuşmamaqdadır. Atasının önündə saçını darayan və ya anasının evləndirmək istədiyi yaşlı adamla evlənmək istəməyən gənc qız müasir toplumda keçmişə görə cəzlanadırılacaq bir davranış sərgiləməməkdədir" [1, s.103]. Əfsanələrdə təbliğ olunan bəzi dəyərlərin günümüzdə dəyər kimi qəbul olunmaması həmin əfsanələrin də sıradan çıxmasına səbəb olmuşdur. Əfsanələrin mövcud dini-əxlaqi dəyərləri təbliğ edən mətnlər kimi yaşaması üçün mövcud düzənin sürdürülə bilməsinə ehtiyac vardır. Əfsanələr bir mətn kimi mövcud düzəni dəstəkləməklə, həm də öz mövcudluqlarını dəstəkləmiş olurlar. Onlar bir-birini dəstəkləyir, birinin mövcudluğu digərinin varlığına bağlıdır.

## Ədəbiyyat / *References*

1. Kumartaşlıoğlu, S. Şekil değiştirme motifli efsanelerde lanet // Ekev akademi dergisi, Yıl: 21, Sayı: 69.
2. Qarabağ: folklor da bir tarixdir, II kitab (Bərdə və Ağcabədi rayonlarından toplanmış folklor örnəkləri) / Toplayanlar: Ə.Əfzələddin, İ.Rüstəmzadə və b.; Tərtib edən: İ.Rüstəmzadə. – Bakı: Elm və təhsil, 2012.

3. Qarabağ: folklor da bir tarixdir, III kitab (Ağdam, Füzuli, Cəbrayıl, Tərtər, Qubadlı, Zəngilan, Kəlbəcər, Laçın və Şuşa rayonlarından toplanmış folklor örnəkləri) / Tər. ed. İ.Rüstəmzadə. – Bakı: Elm və təhsil, 2012.
4. Qarabağ: folklor da bir tarixdir, X kitab (Zəngilan və Şuşa rayonlarından toplanmış folklor örnəkləri) / Toplayıb tərtib edən: İ. Rüstəmzadə. – Bakı: Elm və təhsil, 2018.
5. Tovuz folklor örnəkləri. II kitab / Toplayanlar: S.Qasımova, İ.Rüstəmzadə, Tər. ed.: İ.Rüstəmzadə. – Bakı: Elm və təhsil, 2020.
6. Дандес, А. От этических единиц к эмическим в структурном изучении сказок // Фольклор: семиотика и/или психоанализ. / Пер. с англ.; сост. А.С.Архипова. – М.: Вост. лит., 2003.
7. Морохин, Б.Н. Прозаические жанры русского фольклора: сказки, предания, легенды, былички, сказы, устные рассказы: Хрестоматия. – М.: Высш. школа, 1977.
8. Панков, И.А. Легенды об осквернении святынь как элемент структуры сакрального пространства мазара // Традиционная культура, 2020, т. 21, № 2.
9. Пропп, В. Я. Морфология сказки. Изд. 2-е. – М.: Наука, 1969.
10. Пропп, В.Я. Легенда // В.Я.Пропп. Поэтика фольклора (собрание трудов В.Я.Проппа) Составление, предисловие и комментарии: А.Н.Мартыновой. – М.: Издательство “Лабиринт”, 1998.
11. Толстая, С.М. Преступление и наказание в свете мифологии // Семантические категории языка культуры: Очерки по славянской этнолингвистике. – М.: ЛИБРОКОМ, 2010.
12. Чистов, К.В. Русские народные социально-утопические легенды XVII-XIX вв. – М.: Наука, 1967.

## СТРУКТУРА И ФУНКЦИОНАЛЬНОСТЬ ЛЕГЕНД О ЛЮБВИ

**Айтен Гаджиева**
Институт Фольклора НАНА. Азербайджан.
E-mail: aytan.haciyeva@sport.edu.az

**Резюме.** В отличие от других жанров эпического фольклора, структурные особенности легенд по сей день не были изучены детально, в науке нет представлений о составляющих их компонентах. В этой связи в статье целью поставлено изучение структуры легенд о любви. В ходе исследования, отталкиваясь от мыслей Алана Дандеса об этических и эмических подходах, были определены структурные единицы легенд. Исследованием выявлено, что легенды, как и сказки, имеют стабильную структуру, состоят из таких мотифем как опасность, желание, сакральное, увековечение, запреты, нарушение запретов, наказание. Количество мотифем ограничено, однако их последовательность стабильна, неизменна. Мотифемы реализуются в сюжете посредством алломотивов. Если последовательность мотифем задает общую структуру легенд, то последовательность алломотивов задает структуру сюжета. Структура легенд о любви говорит о том, что они имеются в религиозных текстах, пропагандируют единобожие и вытекающие из него ценности.

**Ключевые слова:** легенда, мотифема, алломотив, структура, чудо, наказание, этиология, святыня